

Aslan Quliyev



# Yeznə

*hekayə*

Yeznə gedib karyerdə daş atmağı qərara aldı. Bəsdir, evdə oturdum, deyirdi. Kimdən əskiyəm, bu gün karyerə gedənlər, birisi gün 06-ya oturub fitilləyirlər. Yoxsa mən oturmuşam evdə, qayınlarım iki qəpik pul verirlər, iki il də söz-söhbəti bitmir. Guya mən bunları müflis eləyirəm, guya mən bunların çiyinlərində oturmuşam!

Qaynı Rəsul onu məzəmmətləyirdi. Otur, oturduğun yerdə. Karyerdə nə ölümün var? Yolu düz əməlli-başlı yeriyə bilmirsən, daşı necə atacaqsan! Karyerə getsən, bu gün, sabah yox, ömrünün axırına kimi də 06-ya oturub fitilləyə bilməyəcəksən. Bir halda pul verib danışırıq, alma. Olmaya sənə zorla pul veririk?

Rəsul yeznənin boşuna danışdığını güman eləmişdi. Amma anası deyəndə ki, sabah aparıb yeznəni şose yolundan ötürəcəksən, başından tüstü qalxdı. Ay ana, mən nəyə görə onu ötürməliyəm? Kim karyerə daş atmağa gedən yeznəsini yola ötürür, mən də ötürəm? Adama gülərlər! Bəlkə onun üçün yola salma mərasimi də təşkil eləyək?

Anası təkid elədi, Bakıdan böyük qardaşı Rüstəm zəng elədi, Rəsul könülsüz də olsa razılıq verdi.

Səhər tərslikdən bir yağış başladı, ucundan tut, göyə çıx. Rəsul dedi, yeznə, yağışın kəsməsini gözləyək, iki-üç gündən sonra gedərsən. Yeznə razılaşmadı: “Bacın hinduşka kəsib, şorpendir yığıb, iki-üç günə hinduşka da iylənə, şor-pendir də. Nə olasıdı, duz deyilik əriyək”. “Yeznə, yaxşısı budu, ağzını yum, danışma. Sən danışanda cinlərim qaynaşır! İndiyə kimi sənin düz əməlli-başlı bir işini görmədim, bundan sonra da görmərəm! Sən həmişə nə olasıdı, deyirsən, amma sonra çox işlər olur!”

Yola düşdülər. Yeznə öz atını minmişdi, Rəsul da öz atını, yoldan atları qaytaracaqdı. Yağış bir qaydada yağırdı, yollar palçıqdı, atlar palçığa bata-bata çətinliklə yeriyirdilər. Yolu yarı eləməmiş yeznənin atı batdı və atı palçıqdan çıxarmaq üçün xeyli əlləşəsi oldular. Rəsul atın quyruğundan yapışıb dartır, dişi bağırsağını kəsə-kəsə yeznəni lənətləyirdi. “Bəs deyirdin nə olasıdı? İndi nə olduğunu gördün?! Atın da özün kimi fərsizdir!”

İslanıb cürünbür olandan, əldə-dildən düşəndən sonra atı çıxarıb yollarına davam elədilər, ayaq üstə titrəyən, palçığa batmış atı minməkdən söhbət gedə bilməzdi, yeznə atın yüyənindən yapışıb dartır, ayaqlarını zorla dartıb palçıqdan qopardırdı.

Axır dözə bilmədi, qayın, baxan olsa elə bilər mən səni yol ötürməyə aparıram. Minibsən atı, mən burda palçıqla əlləşirəm. Bəlkə düşəsən, mən minim. Canım çıxdı axı!

Cəhənnəmə çıxdı, Rəsul qışqırdı, düşmərəm! Canın çıxsın öz atını min! Palçıqla da əlləşmə! Mən səni yol ötürəcəyimə boyun olmuşam, daha səni öz atıma mindirəcəyimə yox!

Mərkəzi yola az qalmış yeznə də batdı, nə qədər dartınsa da, çıxa bilmir, çapaladıqca, daha çox batırdı. Əllərini oynadır, Rəsulu haraylayırdı:

- Rəsul!
- Nə var?
- Görmürsən, batıram!
- Görürəm.
- Görürsən, amma kömək eləmirsən? - yeznənin gözləri hədəqəsindən çıxmışdı.

Rəsul məcbur qalıb atdan düşdü: “Niyə də kömək eləyim? Lap yaxşı eləyib batırsan. Həyatında ilk dəfədir ağıllı iş görürsən. Sənə dedim axı, bu gün getməyək! Döşünə döyürdün, duz deyilik əriyək. Bəs nə oldu, niyə əriyirsən? Çıxartmayacağam, bekara yalvarma! Qoy sənin də canın qurtarsın, bizim də. Yoxsa sən nə qədər sağsan, bizə dinclik yoxdu!” Yeznənin ağzı açıla qalmışdı: “Qayınço, nə danışdığındı, sizlərin etibarı bura qədərmiş?! Mənim taylarım indi uzanıblar sobanın qırağında, siqarlarını tüstülədir, çaylarını içirlər! Mənimsə burda canım çıxır, palçıqda eşirəm, çapalayıram! Bir tikə çörək üçün evimdən didərgin düşmüşəm! Qayınım da batmağımı istəyir!”

Rəsul yanıb yaxılırdı: “Olmaya mən səni bir tikə çörəkdən ötrü evindən didərgin salmışam? Olmaya mən səni palçığa batırmışam, sən də eşir, çapalayırsan? Sənin tayların sobanın qırağında uzanıb siqarlarını tüstülədir, çaylarını içirlərsə, sən də uzan sobanın qırağında, çayını iç, siqarını tüstülət!”

Danışıb yorulandan sonra könülsüz halda yeznənin əlindən yapışıb dartmağa başladı. Mümkün deyildi, sanki yerə yapışmışdı, xeyli çalışandan sonra nəhayət yeznəni çıxarda bildi. Üst-başı palçıq içində olan, gözləri belə palçıq içində işıldayan yeznəyə baxır, baş-gözünü yumruqlayırdı: “Sən gedib karyerdə daş atacaqsansa, daş düşsün o karyerin də, o karyerdəkilərin də başına!”

Yollarına davam elədilər. Şose yolunun aşağısındakı çayda yeznə ayaqqabılarını yudu, paltarlarını dəyişdi. Rüstəm üçün hazırlanan bağlamaların Bakıya aparılması qalmamışdı. “Gəlin hər şeyə dodaq büzür, - Rəsul dedi, - palçıqlı bağlamaları görsə, göyərib ürəkdən gedəcək. Əmim toğlu aparıbmış, toğlunun qanı çıxıbmış parçanın üstünə, görən kimi titrəyib yerə dəymişdi”. Yeznə çətinliklə razılaşırdı, bəlkə hinduşkanı aparım, çayda yuyum, büküm təmiz parçaya, nə olasıdı? Deyərəm, palçığa batmışdı. Yoxsa əliboş getməyim yaxşı çıxmır. “Sənin vecinə deyil, - Rəsul hinduşka olan bağlamanı zorla dartıb yeznədən aldı. - Hinduşkadan ötrü gəlini öldürmək istəyirsən, Rüstəm onu şirin canından çox istəyir. Gəlin ölsə, Rüstəm də əldən gedəcək”.

Yola çıxdılar, atları yolun kənarında bir yerə bağladılar. Çox çəkmədən avtobus gəldi. Yeznə avtobusa minmək istəyəndə, ayağı sürüşdü, fırlanıb guppultuyla avtobusa necə dəydisə, avtobus silkələndi. Sürücü qorxmuş halda qışqırdı: “Vay dədə, avtobusu Kamaz vurdu!” “Kamaz vurmadı, - Rəsul hirsindən və xəcalətindən qızarmış halda dedi, - yeznə vurdu!” “Nə? - sürücü bağırırdı. - Yeznə nədir?”. “Nədir, yox, kimdir? - Rəsul ona irad tutdu. - Orta məktəbdə dərs-filan oxumayıbsan. Oxusaydın dağ yollarında dağ boyda avtobus qovmaq əvəzinə, indi oturmuşdun yellənən kresloda, sağa-sola əmrlər verirdin”. “Sən yəqin dərs oxuyubsan, amma hər halından yellənən kresloda oturub sağa-sola əmrlər verənə oxşamırsan. Bu yeznə  ” Yerə düşən sürücünün gözü avtobusun yanıyla sürüşüb yerə oturmuş, əlləri yanına düşmüş, gözləri meyit gözləri kimi ağarmış yeznəyə sataşanda sözü yarımçıq qaldı. Yeznə avtobusa necə dəymişdisə, avtobusun böyüründə iri bir çökək əmələ gəlmişdi. Avtobusu vuranın Kamaz yox, yeznə olduğunu görsə də, sevinmək əvəzinə, baş-gözünə döyürdü. Vay dədə, evim yıxılıb, avtobusun böyürü çöküb! Şirkət malıdı, hələ pulunu ödəməmişəm. Pa atonan oğul yiyəsi, tank vursaydı, bu qədər əzməzdi! “Yeznə, Allah sənin bəlanı versin! - Rəsul yana-yana deyirdi. - Vaxt ikən dur cəhənnəm ol! İt-qurd gəlsə, batdıq. Deyəcəklər, yeznə avtobusu dayandığı yerdə vurubsa, günah yeznədədi. Nədən olmasa da, belə şeylərdən başımız çıxır”.



Sürücü razılaşmırdı. Pulumu verin, bunun təmiri bir ətək pul tutacaq. Məcbur qalıb Rüstəmə zəng elədi. “Mənə qulaq asmadın, indi zəhmət çək, pulunu ödə. Avtobusun pulunu! Yeznən toqquşub avtobusla, böyürünü çökürdüb! Əşşi, mən nə bilim, camaatın yeznələri heç velosipedlə toqquşmurlar, bizimki avtobusla toqquşur! Sürücüylə özün danışarsan, mən başa sala bilmədim. Düz deyirsən, son vaxtlar mənə nəsə olub, heç kimi başa sala bilmirəm. Yeznəni heç başa sala bilmirəm!”

Sürücü onu Bakıda qarşılayıb pulunu verən olacağını eşidəndən sonra, könülsüz də olsa razılaşdı. Yeznə avtobusa minəndə geri döndü:

- Qayın, - dedi, - səfərə gedirəm. Dünyanın işini bilmək olmaz. Haqqını halal elə.
- Eləmərəm! - Rəsul çımxırdı.
- Necə yəni?
- Bunun da necəsi olur? Haqq mənimdi, halal eləmirəm! Səndən çəkdiyimi bir Allah bəndəsindən çəkməmişəm! Sən məni yandırırsan, cızdağımı çıxardırsan, hələ bir haqqımı da sənə halal eləməliyimişəm? Eləmərəm!

* * *

Rüstəm bir təhər sürücünü yola gətirdi, yüz əlli manata razılaşdılar. Yalnız bundan sonra yeznəni axtardı, yeznə avtobusun yanıyla ona doğru gəlirdi, sol böyürü üstə əyilmişdi, sağ əli yuxarı qalxmışdı, sol əli isə az qala yerə dəyirdi. Eynən türk aktyoru Şaban kimi yeriyirdi. “ Bu nə yerişdir? - yeznənin salamını almadan başına qışqırdı. - Adam kimi yeri! Kənardan görüb eləyən olar, şəbədə bəzərlər!”

- Yeriyə bilmirəm axı.
- Niyə? - heyrətlə soruşdu.
- Orqanlarım sola sürüşüb, - yeznə fağır-fağır dedi.
- Nəyin sürüşüb?
- Orqanlarım.
- Yeznə, səfehləmə, adam kimi danış.
- Əşşi, mən adam kimi danışıram, siz başa düşmürsüz, mənim danışığım sizə ağır gəlir. Mən danışanda cinləriniz qaynaşır, təpənizə dırmaşır! Yollarımız əyridir, Bakıya kimi yan pörtü gəlmişəm. Orqanlarım hamısı sürüşüb sola, ağırlıq eləyirlər. Mən də sola əyilib yeriyirəm.

“Sən yeznə olmadın, başa bəla oldun! - Rüstəm hiddətlə deyirdi. - Oturmursan xarabanda, daş atmaq eşqinə düşürsən! Səndən daş atan olar? Safçillə vaxtında bir işə yarayan deyildin, əyri-üyrü vaxtında necə daş atacaqsan? Bilmirəm, nəyin sürüşüb, öz işindir, amma arvadın yanında ağzından bir söz qaçırtma! Dilindən düşməz! Onunkular gəlir, adam kimi danışır, adam kimi oturur, çıxıb gedirlər. Mənimkilər gəlir, hərəsində bir əmma. Arvad sənin gəldiyini eşidib, düşüb əsməcəyə. Zalım balası, indidən göyərib”. “Əsməcəyə nöş düşür? Adam yeyənik? Onun qohumları adam kimi gəlib gediblər, biz də adam kimi gəlib gedərik”. “Yeznə! - hirslə dedi. - Adam kimi yeriyə bilirsən, adam kimi də gəlib gedəsən? Bir ətrafına bax, gör özün kimi əyrimçə bir alçağı görə bilərsən?”

Yolda yeznədən soruşdu, telefonunu niyə söndürmüşdün, nə qədər zəng elədimsə, zəng çatmadı. Axı mən sənə telefon göndərmişdim. “Satdım onu, - yeznə əlini yellədi. - Zəng gələndə həyəcanlanırdım. Ürəyimə neçə yerdən çat düşdü. Bacına dedim, görürsən, qağalarından adama xeyir gəlməz, fərli şey olsaydı göndərməzdilər, bu andırın hesabına ürəyim sıradan çıxdı. Bacın da deyir, qağalarım sənin gözünə ağ salıblar  ” “Düz deyib! - yana-yana dedi. - Demək, telefon göndərməklə sənə pislik eləmişəm? Ürəyini partlatmaq üçün göndərmişəm! Bir halda həyəcanlanırdın, ürəyinə çat düşürdü, verirdin qalırdı bacımda. Barı ürəyimiz istəyəndə yazıq qızla danışa biləydik”.

Arvadı içəri keçən yeznəyə heyrətlə baxırdı, buna nə olub, niyə əyilib? Yeznə ağzını açmaq istəyəndə Rüstəm gözünü ağartdı, boş şeydir, dedi, yeznə özünü yolda soyuğa verib, ondandır. “Nə bilim, - qadın çiyinlərini çəkdi, - demək, sizin adamlara soyuq dəyəndə əyilirmişlər? Birinci dəfədir eşidirəm. Sözün düzü, səninkilərdən biri düz gəlsəydi, yəni adam kimi, çaşardım”.

Yeznə isə dil-ağız eləyirdi, gəlin, gərək bağışlayasan, əli boş gəlməzdim, o qabiliyyətin sahibi deyiləm. Amma yolda at batdı, sonra da özüm batdım, bağlamalar bir az palçığa bulaşmışdı. Rəsul qoymadı gətirəm. Mən orda batmışam, bu isə çıxartmaq istəmirdi! “Yaxşı eləyirdi, - Rüstəm arvadına hiss elətdirmədən onun boynunun kökündən yapışıb dartdı. - Muştuluq alırsan? Cəhənnəmə batdın! O yolu səninlə bərabər Rəsul da gəlirdi, necə olur, o batmır sən batırsan? Oturmursan yerində, yazıq uşağı da işə salırsan, o nələr çəkib, mən bilirəm”.

Yeznə daha bir söz demədi, yuyunub stol arxasına keçdi. Gözlərində razılıq ifadəsi var idi. Gəlin çayı gətirib uzaqlaşan kimi də qaynına tərəf əyildi. “Bilmirsiz də qədrimi. Gördün də, ağzımdan bir söz də qaçırtmadım, amma gəlin himinə-griminə kimi öyrənmək istəyirdi”.

(Davamı səhifə 19-da)

*(Əvvəli səhifə 18-də)*

# Yeznə

*hekayə*

Yeznə çox acıbmış, acgözlüklə dolmadan yeyir, hələ bir gəlini tərifləyirdi də. Amma birdən əlini süfrədən çəkdi, balıq udubmuş kimi düz oturdu. Rüstəm yeznə tərəfdən əcaib səslər gəldiyini eşitdi. Əyilib pıçıltıyla soruşdu:

- Yeznə, sən tərəfdən bir cür səslər gəlir. Orqanların sürüşür?

- Sürüşmürlər, - yeznə başını yırğaladı.

- Allaha şükür!

- Amma

- Nə amma?

- Qarnım cırıldı.

- Necə yəni cırıldı? Yeznə, adam kimi danış, sənə nələr olur?

- Bilirsən qayın, yolda atım batdı, güc verməkdən qarnımın dərisi nazildi. Sonra da özüm batdım, o qədər dartındım, dərim lap nazildi. Rəsul da kömək eləmədi, təkbaşına dartınırdım. İndi də bir az çox yedim, tab gətirmədi, cırıldı



Rüstəm dişlərini qıcayırdı. "Ay axmaq, bir halda ata güc verdin, dartındın, dərin nazildi, canını çıxırdı, az yeyirdin? Sən durduğu yerdə qarnı cırılan bir insan bəndəsi görübsən? İndi necə olsun? Qoy arvadı bir təhər qonşuya göndərim, tikim qarnını". "Sən birdən ikiyə qarın tikibsən?" "Mən birdən-ikiyə qarnı cırılan görmüşəm, qarın da tikəm? Özün bil, mənim qarın tikməkdən ötrü ürəyim getmir. İstəmirsən, qal elə". "Necə qalım? Sən bir həkim çağır, özüm durub gedə bilmərəm. Ayağa qalxsam, orqanlarım hamısı çölə çıxar! Qayın, məni qan basır. "Sakit ol! Arvadın qana qarşı allergiyası var".

Qadın isə artıq eşidibmiş, onlara yaxınlaşdı, yeznənin oturduğu stuldan döşəməyə damcılayan qanı görəndə dodaqları əsdi, göm-göy göyərdi və birdən tirtap döşəməyə sərildi. Rüstəm arvadını götürüb divana uzatdı, üz-gözünə su vurdu. Məcbur qalıb həkim çağırdı. Məlum işdir, əhvalatı arvadından gizləyə bilmədi, arvadı isə hələ bir ona təsəlli verirdi, boş şeydir, təkcə qarnının cırılmasıyla qurtarsaq, gərək qurban kəsək.

Həkim gəldi. Yeznəni xəstəxanaya götürdülər. Orda isə azından bir həftə yatmalı olacağını dedilər. Bunlar hamısı xərc tələb eləyirdi,

Rüstəm hər axşam işdən çıxanda yeznəyə baş çəkir, yemək, meyvə gətirir, müalicə xərclərini ödəyirdi. Amma yeznə narazıydı. Qayın, mənimlə yanaşı birisi yatır, qardaşları hər gün beş dəfə ona baş çəkirlər.

- Yeznə.

- Nəydi?

- Sən bir şeyi unudursan.

- Nəyi?

- Mən sənin qardaşın deyiləm. Onun qardaşları beş dəfə gəlirlər, qoy səninkilər on dəfə gəlsinlər! Olmaya mən qoymuram qardaşlarını sənə baş çəkməyə?

- Qayın.

- Nə var?

- Sən bir şeyi unudursan.

- Nəyi? - şübhə ilə soruşdu.

- Mənim qarnım qardaşlarımın evində cırılmayıb, sənin evində cırılıb.

Ürəyini tutub eyni ilə arvadı kimi gömgöy göyərdi. Tfu, sənin sifətinə! Ay oğraş, nə ölümün vardı mənim evimdə, qarnın da cırıla?! Olmaya mən səni çağırmışdım? Olmaya mən sənə demişdim bir qazan dolmanı aşır? Problemin vardısa, canın çıxırdı, az yeyirdin! Acgözlük eləməzdin!

Evə çatmamış anası zəng elədi, qadın ağzını açmağa imkan verməden onu danlayırdı. Heç bacı sizin ümidinizə qalmasın! Bala, nə olub? Yeznə evinin qapısından içəri ayaq basmamış sərki veribsən! Evində yediyi bir tikə çörəyi başına qaxıbsan! Yazıq canının hayındadır, bu yandan da sən düşürsən üstünə! İki köpük pulun çıxıb, ya çıxmayıb, yazığı niyə öldürürsən? "Ay ana, kim kimi öldürür? Ana, yeznə məni öldürür! Diri gözlü öldürür! Vallah-billah, mənlik bir iş yoxdur! Onun ağlı çatmır, mən ona demişəm avtobusla toqquş! Olmaya mən cırmışam onun qarnını?"

Yeznə xəstəxanadan çıxdı, həkimlərin deməyinə görə daha qorxusu yox idi, amma əyriliyi zərrəcə də düzəlməmişdi, əksinə, bir az də əyilmişdi. Dərhal da karyerə getmək istədiyini dedi, o isə yeznəni dilə tuturdu. Çıx get evinə, qarnını təzəcə tikiblər, daş ata bilməzsən. Qarnın yırtılar, məni şərə salarsan, bir dəfə yırtıldı, bir ətək xərcə düşdüm. Yeznə isə öz fikrindəydi, qayın, narahat olma, qoy başlayım daş atmağa, qaytararam sənin pullarını. Bir köpüyün də batmaz! Son quruşuna qədər alarsan! "Sən? Mənim pullarımı qaytaracaqsan? Yox, yeznə, mən səndən əlimi üzən kimi, o pullardan da əlimi üzmüşəm".

Yeznənin getməkdə qərarlı olduğunu görəndə, özün bilərsən, dilucu dedi, bəlkə bu gün bizə gedəsən, bir gün yatıb, dincələr, sabah gedərsən daş atmağa.

- Yox, - yeznə başını yırğaladı, - getmərəm. Arvadın yenə də göyərib yerə səriləcək! Qayın, bir fərasətiniz olmadı da, öz el-obamızda qızın kökü kəsilmişdi, gərək gəlib bunu alaydın. Hər şeyə dodaq büzür, qan görən kimi göyərir. Necə qıyırsan bizim qızlara, istəyirsən yanlarında cöngə başı kəs! Veclərinə də almazlar.

- Ay axmaq! - ürəyini tutmuşdu. - Arvad zalım balasında günah var? Durduğun yerdə qarnın cırılır, qan götürüb gedirsə, necə də göyərməsin?! Yeznə sən mənim ciyərimi yandırırsan!

- Camaatın qayınları yeznələrini görəndə çiçəkləri çırtdayır, mənimkilər isə məni görəndə ciyərləri yanır. Əşşi, dava deməmdik. Deyirsən, gedək, gedək də.

Əslinə qalsa yeznəni evə aparmaq fikri yox idi, təklifini söz gəlişi eləmişdi, amma yeznə onu necə hirsləndirdisə, hər şeyi unutdu. Daha geri çəkilə bilməzdi.

Arvadı yeznəni görəndə, rəngi saraldı, yeznə içəri keçəndən sonra pıçıltıyla soruşurdu. Xəstəxanada da bunu düzəldə bilmədilər, haçana kimi əyri qalacaq? Daha bir yerləri cırılmayacaq ki? Sən əminsən də? Rüstəm əmin deyildi, yeznənin heç bir şey olmadan sakitcə çıxıb gedəcəyinə inanmırdı, amma arvadını qorxutmamaq üçün onu arxayınlaşdırırdı. Əşşi, o da bir işdi, narahat olma, heç yeri cırılan deyil. Beləliyinə baxma, buz baltası kimidi.

Qadının gözləri heyrətdən geniş açılmışdı. Nə bilim? Mən hər halda əyri buz baltası görməmişəm.

Bilmirsiz də qədrimi, gəlin uzaqlaşandan sonra yeznə yenə də özünü tərifləyirdi, niyə əyildiyimi öyrənmək üçün gəlin sinov gedir, amma öyrənə bilmir. Demirəm, yoxsa desəm, yollarımız əyridir, ona görə orqanlarım sürüşüb, bir il dilindən düşməz.

Halal olsun, yeznəni tərifledi, nəyin olmasa da, söz saxlamağın var imiş.

Gəlin çay gətirdi, armudu stəkan yeznənin iri ovcunda itmişdi, sifətində narazılıq ifadəsi var idi. Nəydi, Rüstəm işarəylə soruşdu. "Nə olacaq, çay buz kimidi, - yeznə şikayətləndi,- almadın öz qızlarımızdan, bunun qabiliyyətinə bax, soyuq çayı qoyur qabağıma! Məni adam hesab eləmir, nədi?" "Yeznə, - Rüstəm heyrətlə dilləndi, - çay istidir axı!" "Nə? İstidir?" Yeznə stəkanı başına çəkdi, birdən gözlərini bərəltdi və bu uzun adamdan əcaib səs hasil oldu, necə yuxarı tullandısa, başı çilçırağa dəydi. Vurub stolu aşırdı, stolun qıçı televizora dəydi, televizor aşdı, ekran şkafın tininə dəyərək çiliкləndi. Qığılcım qopdu, xalçanın saçaqlarını od aldı. Rüstəm özünü itirmədi, televizoru elektrikdən ayırdı. Hamama qaçıb bir vedrə su gətirdi, xalçanı söndürdü. Yeznə isə hələ də atılıbdüşürdü, gəlin də ayaq üstəcə donub qalmışdı, göyərir, dodaqları əsirdi. Rüstəm arvadından yapışıb onu divana uzatdı, üz-gözünə soyuq su çiləyib ayıltdı.

- Ay axmaq, - yana- yana artıq sakitləşən yeznəyə deyirdi. - Sənə nə oldu birdən-birə? Soncuqlamış dana kimi niyə atılıb düşürdün?

- Necə yəni niyə? Çay içimi yandırdı! Ciyərimi ütdü!

- Bəs deyirdin soyuqdu?

- Mən nə bilim? Sizin çayın çölü soyuq olurmuş, içərisi isti.

- Mən stəkanları soyuq suyla yumuşdum, - özünə gələn gəlin ağırağır dedi.

Yeznə, sən haqlıymışsan, Rüstəm yana-yana dedi, mən səni birbaşa karxanaya göndərməliydim. Nə isə, ziyanın yarısından qayıtmaq da xeyirdir. Daş karxanası olan tanışlarından birinə zəng elədi və yeznəni aparıb yola saldı. Yeznə avtobusa minəndə Rüstəmlə də halallaşmaq istədi.

- Qayın, karyerdi də, bilmək olmaz. Haqqını halal elə

- Nə..ə?! Eləmərəm!

- Necə yəni?

- Eləmərəm, vəssalam-şüttamam! Başıma it oyunu açdığın bəs eləmir, hələ bir fikrindən keçir, haqqımı da sənə halal da eləyim?! Eləmərəm!

Yeznə getdi. Amma axşamçağı dostu ona zəng elədi. Gəl bu zibilinə yiyə dur, daşı qaldırıb maşına atsın, ata bilməyib, daş düşüb başına, deyir, ortadan sınmışam. İt-qurd tökülüb bura, bir ətək xərcə düşmüşəm.

Yeznə daha üç gün xəstəxanada yatdı, amma bu dəfə xəstəxanadan çıxanda elə də əminliklə danışmırdı. Əşşi, mən neyləyim, orqanlarım sürüşməsəydi, bir tərəfə əyilməsəydim Rüstəm ona çox danışmağa imkan vermədi. Çıx get evinə. Uzan sobanın qırağında. İç çayını, tüstülət siqarını. Hər ay sənə cağbacağ orda qazanacağın qədər pul göndərəcəyəm.

Yeznəni birbaşa avtovağzala gətirdi, cibinə pul qoydu, amma yeznə narazıydı.

- Qayın

- Nədi?

- Heç evə dəvət eləmirsən

- Səni? Evə dəvət eləyim? Evi viran qoydun, arvadı da yarıcan elədin. Bəs deyil? Sənin evə dəvət olunmalın var?

Yeznə sözünü ucadan deməyə cürət eləməsə də, dodaqaltı mızıldanırdı, mənimki qayın sarıdan gətirmədi. Camaatın da qayınları var, mənim də. Məni görəndə elə bil qutuda ilan görürlər. Balam, neyləmişəm sizə, haranın daşını salmışam başınıza?

Yeznə avtobusa minəndə geri boylandı. Baxışlarında sual var idi, Rüstəm onun nə demək istədiyini başa düşdü. Eləmərəm, pıçıltıyla dedi, bekara özünü yorma. Çıx get! A kişi, haqq mənim deyil, eləmirəm də! Zordu?

Onun üçün nə qədər çətin olsa da, gecə arvadına dedi ki, bəs məsələ belədir, mən hər ay yeznəyə pul göndərməliyəm. Arvadının narazılıq eləyəcəyini, hay-küy salacağını gözləyirdi. Amma tam tərsinə oldu, arvadı əməlli-başlı sevinirdi. Yaxşı eləyəcəksən, gətir hər ay ver mənə, qoy özüm aparım yola salım. Yoxsa yadından çıxar, göndərib eləməzsən, yeznə durub gələr daş atmağa. Boğazımdan kəsərəm, yeyib içmərəm, ac qalaram. Təki yeznə gəlməsin. O birilərə min şükür! O gələni həyatımız zəhərə dönüb. Sağ-salamat gedib rayona çıxsın, qurban kəsərik.

Elə bu arada anası zəng elədi. "Qardaşın getmirdi yezənin qabağına, güc-bəla göndərmişəm. Nəsliyini gətirdi, iş də düz gəlmədi". "Ay ana, qarşılama mərasimi olmasa, yeznən kəndə gələ bilməzdi? Hökməndi onu yol ötürələr, gələndə qarşılayalar? Bilirəm, ana, əvvəlcə yeznənin atı batıb, sonra da özü. Dartınıb, qarnı cırılıb " "Yaxşısız yazığı qaralamağa. Nə atı batıb, nə də özü. At gəlib kəndə girəndə vaygirliyi tutub, özünü çırpıb qonşunun çəpərinə, atılıb çəpərin üstündən. Qonşunun gəlinini vurub yıxıb, gəlinin qıçı sınıb. Gəlini aparıblar xəstəxanaya " "Ay ana, bu əclaf bb yeznəyə de bir gün rahat qalsın da, otursun evində, yerindən tərpənməsin! Heç olmaya bircə günlüyə! Ana, indi mən neyləməliyəm? Atı dilə tutmalıyam, daha vaygirlik eləməsin?" "Yeznən deyir, başqalarının qayınları olsaydı, gəlindən qabaq özlərini xəstəxanaya çatdırar, it-qurd gəlməmiş işi yoluna qoyardılar. Deyir, mənimkilərin isə ürəyindəndir! Mənə bir şey olanda, elə bil bunların çırağına nöyüt tökürsən". "Ana, o deyir sən də inanırsan? Ona həmişə bir şeylər olur da. Yaxşı, ana, yeznənin atı vurub camaatın gəlinini şikəst eləsin, mən də Kaş onda olan bəxt məndə olaydı! Yaxşı, ay ana, gəlirəm! Maşınımı sataram, evimi sataram, qoymaram yeznəyə bir şey olsun!"

Səfər üçün hazırlıq görməkdə ona kömək eləyən arvadı da elə hey baş-beynini aparırdı, ehtiyatlı olarsan. Axır dözə bilmədi.

- Niyə ehtiyatlı olmalıyam?

- Yollarınız əyridir, ona görə. Orqanların ora-bura sürüşər, şərə salarsan bizi. Sənin də yeznə kimi bir əlin göydə qalar, bir əlin yerdə.